BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

ВЕСТНИК БАКИНСКОГО УНИВЕРСИТЕТА

NEWS OF BAKU UNIVERSITY

ISSN 1609-0586

TƏBİƏT
elmləri seriyası

СЕРИЯ
естественных наук

NATURAL
sciences series

№1.2010

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

№ 1 *Təbiət elmləri seriyası* 2010

TİOFENOLLARIN BENZOİLLƏŞMƏSİ

S.H.MUXTAROVA*, HASAN GENC, İ.Ə.ƏLİYEV***,**
S.C.RZAYEVA*, M.Ə.ALLAHVERDİYEV***
***AMEA-nın Aşqarlar Kimyası İnstitutu**
****100 Yıl Universiteti (Van, Türkiye)**
*****Bakı Dövlət Universiteti**
mirze_a@mail.ru

Müxtəlif əvəzli tiofenolların benzoilləşmə reaksiyasının gedişinə komponentlərin kütlə, mol nisbəti və həmçinin temperaturun təsiri tədqiq edilmişdir. Alınmış sulfidlərin quruluşu IQ və ^{13}C NMR spektrləri ilə öyrənilmişdir. Müəyyənləşdirilmişdir ki, fenil qrupunda yerləşən əvəzedicilərin təbiəti valent rəqslərinin qiymətinə təsir etmir.

Kükürdüzvi birləşmələr canlı orqanizmin fəaliyyətində mühüm rol oynayan aminturşuların, fermentlərin, vitaminlərin və digər təbii və fizioloji birləşmələrin tərkibinə daxildir [1]. Onlar, həmçinin bir sıra dərman maddələrinin sintezində sinton rolunu oynayır. Hazırda 1600-dən artıq sintetik dərmanlar kükürdüzvi birləşmələr əsasında alınmış və farmakalogiyada geniş tətbiq olunur [2]. Kükürdüzvi birləşmələr kənd təsərrüfatında da herbsid, peptisid, insektsid, fungisid və digər fizioloji birləşmə kimi istifadə edilir [3]. Texnikada da kükürdüzvi birləşmələrdən sürtgü yağlarının oksidləşmə, siyrilmə və digər xassələrinə müsbət təsir göstərən vasitə kimi tətbiq olunur [4]. Bütün bunları nəzərə alaraq, müxtəlif sinif kükürdüzvi birləşmələrin quruluşu ilə antioksidləşdirici xassələri arasında əlaqənin müəyyən edilməsi sahəsində tədqiqatları davam etdirərək [5-9], müxtəlif aromatik tiollar benzoilləşmə reaksiyasına daxil edilmişdir.

Aromatik tiolların benzoilləşmə reaksiyası 60 və ya 100^0 C-də 4 saat müddətində aparılmış və yüksək çıxımla ariltiobenzoatlar (I-IX) alınmışdır:



R = H (I); 4-CH_3 (II), 4-CH_3O (III); 4 -F (IV); 4-Cl (V); 4-Br (VI); 4-J (VII); 4-CH_3CO (VIII); 2,4,6 -$(CH_3)_3$ (IX).

Cədvəl 1-də aromatik tiolların benzoilləşmə reaksiyasının şəraitini xarakterizə edən göstəricilər verilmişdir.